| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 16.09.2022 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 356 |
| **ADI** | “Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqaviləsinin forması”nın təsdiq edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı (Dərc olunma tarixi: 19.09.2022), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30.06.2022, Nəşr nömrəsi: 6, Maddə nömrəsi: 1090) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 19.09.2022 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 210.050.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14202209160356 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 21.09.2022 |

**“Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqaviləsinin forması”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqaviləsinin forması” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 16 sentyabr 2022-ci il
356

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2022-ci il 16 sentyabr tarixli 356 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair**

**MÜHAFİZƏ MÜQAVİLƏSİNİN FORMASI**

---

**Şuşa şəhəri,** “____” ____________ il

Bir tərəfdən ____________________________________________(bundan sonra – İstifadəçi),
(mülkiyyətində, icarəsində və ya istifadəsində abidə olan fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin tam adı)

digər tərəfdən Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin (bundan sonra – İdarə) səlahiyyətli əməkdaşı ________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

arasında “Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarına əsasən dövlət mühafizəsinə götürülmüş, yaxud Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası”nın 8-ci hissəsinə uyğun olaraq mühafizənin qabaqlayıcı dərəcəsi tətbiq olunmuş ____________________________________

____________________________________________________________________________
(abidənin adı, yerləşdiyi ünvan, əhəmiyyət dərəcəsi və inventar nömrəsi)

abidənin (bundan sonra – abidə) mühafizə müqaviləsi (bundan sonra – Müqavilə) Azərbaycan Respublikasının mülki qanunvericiliyinə, “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinə, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə, “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikası Qanununun 5.12-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi”nin 3.1.4-cü yarımbəndinə müvafiq olaraq aşağıdakı şərtlərlə bağlanılır:

**1. Müqavilənin predmeti**

1.1. Bu Müqaviləyə əsasən İstifadəçi abidədən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun istifadə edilməsini və onun qorunmasını öhdəsinə götürür.

1.2. Bu Müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən “Abidənin texniki vəziyyəti haqqında akt” (əlavə olunur) Müqavilə bağlanıldığı anda abidənin texniki vəziyyətini əks etdirir.

**2. Tərəflərin hüquq və vəzifələri**

2.1. İdarənin hüquqları:

2.1.1. abidənin funksional təyinatına uyğun istifadə edilməsinin, habelə tarixi-memarlıq və bədii-estetik görünüşünün toxunulmazlığının və uzunömürlülüyünün təmin edilməsi üçün tövsiyələr vermək;

2.1.2. bu Müqavilənin 2.2.1-ci yarımbəndində qeyd olunan göstərişdə nəzərdə tutulmuş yerinə yetirilməli tədbirlərin icrası vəziyyətini yoxlamaq;

2.1.3. abidədə və ya onun ayrı-ayrı hissələrində aparılacaq təmir, konservasiya və bərpa işləri aparıldıqda, İdarənin nümayəndəsinin iştirakını təmin etmək, bununla bağlı həmin ərazini əvvəlcədən nəzərdən keçirmək.

2.2. İdarənin vəzifələri:

2.2.1. abidəyə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı mülkiyyətçiyə, istifadəçiyə və icarəçiyə yazılı göstərişlər vermək;

2.2.2. abidənin qorunması və ya bu Müqavilənin şərtlərinə əməl edilməsi vəziyyətini yoxlamaq məqsədilə abidədə monitorinq keçirmək.

2.3. Mülkiyyətçinin, istifadəçinin və icarəçinin vəzifələri:

2.3.1. abidədən istifadə zamanı onun həcm kompozisiyasının, xarici görünüşünün, konstruktiv elementlərinin dəyişdirilməsinə, abidələrə zərər vurulmasına, təsərrüfat işləri zamanı arxeoloji abidələrdə mədəni təbəqənin korlanmasına yol verməmək;

2.3.2. hər hansı işləri yerinə yetirərkən, abidənin bədii-estetik görkəminin dəyişdirilməsinə, uçurulmasına və onlar üçün təhlükə yarada biləcək hallara yol verməmək;

2.3.3. abidə və ya onun ayrı-ayrı hissələri (arxeoloji abidələr istisna olmaqla) müqavilə əsasında elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün Azərbaycan Respublikasının normativ hüquqi aktlarında nəzərdə tutulmuş qaydada icarəyə verilərkən, onun istifadə proqramını, uyğunlaşdırılma və bərpa layihələrini İdarə ilə razılaşdırmaq, abidə və ya onun hissələri digər məqsədlər üçün icarəyə (istifadəyə) verildikdə bu barədə İdarəyə məlumat vermək;

2.3.4. abidəni və ona aid bütün əmlakı lazımi sanitariya, yanğından mühafizə və texniki təhlükəsizlik tələblərinə uyğun vəziyyətdə saxlamaq;

2.3.5. İdarənin razılığı olmadan abidəyə aid yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə, qeyri-yaşayış sahəsinin isə yaşayış sahəsinə keçirilməsinə yol verməmək;

2.3.6. İdarənin razılığı olmadan abidənin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası ilə bağlı işlərin həyata keçirilməsinə yol verməmək;

2.3.7. abidənin monitorinqinin həyata keçirilməsi üçün lazımi şərait yaratmaq.

2.4. Bu Müqavilənin 2.3.3-cü, 2.3.5-ci və 2.3.6-cı yarımbəndləri Müqavilənin mülkiyyətçi ilə bağlanması hallarına şamil edilir.

2.5. Mülkiyyətçinin, istifadəçinin və icarəçinin hüquqları:

2.5.1. bu Müqavilədən irəli gələn vəzifələrin icrası, o cümlədən lazımınca icrası ilə bağlı İdarəyə metodiki yardım və məsləhət məqsədilə müraciət etmək (sorğu vermək);

2.5.2. mülkiyyətində, istifadəsində və icarəsində olan abidədən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və bu Müqavilənin tələblərini yerinə yetirməklə, öz mülahizəsinə görə abidəyə sahiblik etmək, ondan istifadə etmək.

### 3. Müqavilənin müddəti

3.1. Bu Müqavilənin qüvvədəolma müddəti abidənin mülkiyyətçinin, istifadəçinin və icarəçinin sahibliyində olduğu müddətə görə müəyyən edilir. Abidənin mülkiyyətçisi, istifadəçisi və icarəçisi dəyişdikdə, tərəflər arasında yenidən Müqavilə bağlanılır.

### 4. Digər müddəalar

4.1. Tərəflər arasında yaranan mübahisələr qarşılıqlı razılaşma əsasında həll edilir. Razılığın əldə edilməsi mümkün olmadıqda, tərəflər arasında mübahisələr məhkəmə və (və ya) inzibati qaydada həll edilir.

4.2. Bu Müqavilədə nəzərdə tutulmayan digər mühafizə tədbirləri "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən həyata keçirilir.

4.3. Bu Müqavilə eyni hüquqi qüvvəyə malik olan 3 (üç) nüsxədə tərtib olunur, onlardan ikisi İdarədə, üçüncüsü isə İstifadəçidə saxlanılır.

Müqavilə tərtib olunduğu anda abidənin texniki vəziyyəti haqqında akt: (______) vərəq.

### 5. Tərəflərin ünvanları və imzaları

5.1. İdarə ______________________________________________________________

(hüquqi ünvanı və əlaqə telefonu)

5.2. Mülkiyyətçi/İstifadəçi/icarəçi ___________________________________________

(ünvan, əlaqə telefonu)

İdarəni təmsil edən şəxs: Mülkiyyətçi/İstifadəçi/icarəçi:

______________________________ (imza)

______________________________ (imza)

**M.Y.**

“Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqaviləsi”nə
**əlavə**

**Abidənin texniki vəziyyəti haqqında**

**A K T _____**

**Şuşa şəhəri,** **“____” ____________ il**

Biz aşağıda imza edənlər: Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin (bundan sonra – İdarə) nümayəndəsi____________________________________________________________________

______________________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

bir tərəfdən və ___________________________________________________________________
(mülkiyyətində, icarəsində və ya istifadəsində abidə olan fiziki şəxsin soyadı, adı, atasının adı, yaxud hüquqi şəxsin tam adı, nümayəndəsinin vəzifəsi, soyadı, adı, atasının adı və digər məlumatlar)

digər tərəfdən bu aktı tərtib etdik ondan ötrü ki, _________________________________________
(abidənin yerləşdiyi ünvan)

ünvanında yerləşən ____________ kv.m. olan ___________________________ inventar -si _______
(sahəsi) (abidənin adı)

tarix və mədəniyyət abidəsinə müstəqil ekspertlər (o cümlədən, _______________________________

______________________________________________________________________________)
(ekspertlərin soyadı, adı, atasının adı)

və mütəxəssislər (o cümlədən, ________________________________________________________
(mütəxəssislərin soyadı, adı, atasının adı)

________________________________________________________) iştirakı ilə texniki baxış keçirdik.

Baxış zamanı müəyyən olundu:

**Abidənin texniki vəziyyəti**

“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarına əsasən dövlət mühafizəsinə götürülmüş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası”nın 2-ci hissəsinə uyğun olaraq mühafizənin qabaqlayıcı dərəcəsi tətbiq olunmuş abidələr dövlət tərəfindən mühafizə edilir.

1. Abidənin ümumi vəziyyəti ______________________________________________

2. Abidənin ayrı-ayrı hissələrinin vəziyyəti ________________________________

a) mövcud vəziyyəti ____________________________________________________

b) bünövrə ___________________________________________________________

c) kürsü və ona bitişik səkilər ____________________________________________

ç) dam örtüyü _________________________________________________________

d) xarici dekorativ elementlər ____________________________________________

e) gümbəzlər, onların konstruksiyaları və örtüyü ____________________________

f) arakəsmə və yükdaşıyıcı divarlar _______________________________________

3. İnteryer elementləri __________________________________________________

a) tavan ______________________________________________________________

b) döşəmə ____________________________________________________________

c) sütunlar ____________________________________________________________

ç) qapı və pəncərələr ___________________________________________________

4. Nəqqaşlıq (monumental və dəzgah rəngkarlıq) ____________________________

5. Tətbiqi sənət elementləri ______________________________________________

6. Bağ, park, həyət, darvaza, çəpər ________________________________________

Mülkiyyətçi, İstifadəçi, icarəçi ____________________________________ **M.Y.**

(adı, soyadı və imzası)

İdarənin nümayəndəsi ___________________________________________ **M.Y.**

(adı, soyadı və imzası)